# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 493** **Bakı şəhəri, 14 dekabr 2020-ci il**

***"Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 9, maddə 833; 2012, № 6, maddə 624, № 10, maddə 1005; 2016, № 10, maddə 1713; 2017, № 2, maddə 314; 2018, № 11, maddə 2429; 2020, № 2, maddə 216; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 sentyabr tarixli 348 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarın 1-ci hissəsi ilə yeni redaksiyada təsdiq edilmiş Qaydaların tətbiqi zamanı tələb olunan məlumatların ilkin mənbədən əldə edilməsinin təmin olunması məqsədilə aşağıdakı dövlət orqanlarının və qurumlarının informasiya ehtiyatları və sistemləri "Elektron hökumət" portalı üzərindən Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə sorğularının cavablandırılması qaydasında inteqrasiya edilsin:

2.1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

2.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

2.4. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi;

2.5. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi;

2.6. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti;

2.7. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi.

**3.** Azərbaycan Respublikasının Prezidenti yanında Vətən-daşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi bir ay müddətində "Elektron hökumət" portalı vasitəsilə bu Qərarın 2-ci hissəsində nəzərdə tutulmuş dövlət orqanlarının və qurumlarının informasiya sistemlərinin və ehtiyatlarının Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə inteqrasiyasını təmin etsin.

**4.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi təhsil müəssisəsinin akkreditasiyası üzrə qiymətləndirmə meyarlarını təsdiq etsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti 2020.- 16 dekabr.- S.13.